<"xml encoding="UTF-8?>

# İslam dini və elm (4)

Allahın adı ilə

İngilis alimi Cember yazır: "Etiraf etməliyik ki, müsəlmanlar öz insanlıq və səadət bəxş edən adət-ənənələri ilə bizim torpaqlara işıqlı bir mədəniyyət daxil etmişdilər. Əgər 711-ci ildə Tariq ibn Ziyadın başçılığı altında müsəlmanlar Cəbəlüt-Tariq boğazından Avropaya keçməsəydilər biz indiki vəziyyətimizə heç bir vaxt nail ola bilməzdik. Müsəlman alimləri orta əsrlərdə bir çox qədim və yeni elmlərdən mühüm məlumatlar əldə etmişlər-Mexanika, Dinamika, Hidravlika, kimya və ümymi fizika sahələrində, Astronomiya, əxlaq və fəlsəfə elmərindən 8-10-cu əsrlərdə İslam univeristetlərində tədris olunurdu.

Maraqlıdır ki, 8-ci əsrdən başlayaraq müsəlman şəhərlərində gözəl memarlıq əsərləri olan hamamlar tikilirdi ki, bundan 700 il sonra da Avropalılara hamam sözü heç nə anlaşmırdı.

Türk alimlərindən biri yazır ki, bu gün dünyada gedən cərəyanlara baxıb təssüflə deyirəm, ey kaş, müsəlmanlar Qurandan ayrı düşməyəydilər. Nə qədər ki, müsəlman Quranla bir idi, Quran onu elmlə qidalandırırdı, dünya sirlərini açmağa yönəldirdi. Bəli, həqiqətdə elm dünyasında parlayan müsəlman alimləri öz ilhamlarını Qurandan, Peyğəmbər (s) və məsum imamlardan alırdılar, çünki onlar idi müsəlmanları elmli olmağa

çağıran. Bu gün isə özünü on günlük zəhmətə salıb heç olmasa Quranın tərcüməsini belə oxumaq istəməyən, Peyğəmbər (s) və məsumların qızıldan qiymətli kəlamlarını gözdən keçirmək istəməyən bəzi "ziyalılarımız" dinin insanları elmdən yzaqlaşdırdığını söyləyirlər. Həqiqətdə isə İslam dini yalnız ondan xəbəri olmayanlar üçün cahillər dinidir, çünki xəbərsiz-məlumatsız insan cahildir,dində onun üçün cəhalətdən başqa bir şey ola bilməz. Məşhur Lev Tolstoy buyururdu: -hər şeyi anlamaq istəyirsinizsə, quranı oxuyun,Puşkin isə-suallarınıza cavab tapa bilmirsinizsə, Qurana müraciət edin, çünki Quran açıqlayan və yol göstərən bir nurdur,-deyir

Təəccüblüdür Əgər biz dinimizi tanımırıqsa, nə üçün ona töhmət vururuq. Yada salaq elm şəhərinin qapısı olan Əli (ə) ki, buyururdu: Vay olsun sizin o gününüzə ki, sizin olandan başqaları istifadə edəcək və bunun sizinki olduğundan xəbəriniz belə olmayacaq.

Mən sözümü Fransız alimi Qustav Lobenin dedikləri ilə tamamlamaq istəyirəm:

Əgər dünyadan islam mədəniyyətini götürsəniz, dünyanın mədəniyatsiz olduğunu görərsiniz.

Ey o kəslər ki, özləri və övladları üçün İslam dinini öyrənməyi ar bilirlər, alimin dediklərini bir düşünün.